

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 94 (21.246)

13 may 2015-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 12-də Türkiyə Respublikası Baş nazirinin müavini Əli Babacanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Türkiyənin G-20-yə rəhbərliyə seçildiyini və bu mötəbər təşkilatın bütün tədbirlərinə ev sahibliyi edəcəyini vurğulayan Baş nazirin müavini Əli Babacan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycan Prezidenti İlham Əliyevin həmin tədbirlərdə iştirak etmək üçün dəvətini bir daha diqqətə çatdırdı.

Türkiyənin G-20-yə rəhbərlik etməsini qardaş ölkənin böyük qələbəsi kimi dəyərləndirən dövlətimizin başçısı Azərbaycanın buna çox sevindiyini dedi. Prezident İlham Əliyev bunu həm də dünyanın aparıcı dövlətləri tərəfindən Türkiyənin roluna göstərilən yüksək münasibətin ifadəsi kimi qiymətləndirdi. Azərbaycanı G-20-yə dəvət etdiyinə görə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana bir daha minnətdarlığını ifadə edən Prezident İlham Əliyev bunun dostluğumuzun və qardaşlığımızın bariz nümunəsi, Türkiyə-Azərbaycan birliyini dünyaya nümayiş etdirən başlıca amil olduğunu dedi.

Görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirildi və bu əlaqələrin bundan sonra da genişləndiriləcəyinə əminlik ifadə olundu.

## Azərbaycan Respublikasının Təbrizdəki Baş Konsulluğunda ulu öndər Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü qeyd olunmuşdur

*Mayın 7-də Azərbaycanın İran İslam Respublikasının Təbriz şəhərindəki Baş Konsulluğunda ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə rəsmi qəbul keçirilmişdir.*

Azərbaycanın Təbrizdəki Baş konsulu Əli Əlizadə rəsmi qəbulda çıxış edərək ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətindən, Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanması və möhkəmləndirilməsində göstərdiyi misilsiz xidmətlərdən danışmışdır. Qeyd olunmuşdur ki, ulu öndər ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra ölkəmizi xaos və qarşıdurmalardan xilas etmiş, Dağlıq Qarabağ münaqişəsində atəşkəsə nail olunmuş, Azərbaycan sabitlik və sürətli sosial-iqtisadi inkişaf yoluna qədəm qoymuşdur.



Ulu öndərin müəyyənləşdirdiyi müdrik siyasi xəttin bu gün uğurla davam etdirilməsinin Azərbaycanı dost və tərəfdaş ölkəyə çevirdiyini bildirən Baş konsul demişdir ki, ümummilli liderin əsasını qoyduğu Azərbaycan-İran əlaqələri hazırda yüksələn xətlə inkişaf edir.

Çıxışdan sonra tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevə həsr olunmuş "Dahi şəxsiyyət" adlı filmə baxmış, ulu öndərin həyat və fəaliyyətindən bəhs edən foto və kitablardan ibarət sərgi ilə tanış olmuşlar. Ulu öndərin çoxşaxəli siyasi fəaliyyətini əks etdirən kitab, jurnal və bukletlər tədbir iştirakçılarına paylanmışdır.

Sonda Azərbaycan xalq mahnıları səsləndirilmiş, milli yeməklər və şirniyyatlardan ibarət süfrə açılmışdır.

Mərasimdə Təbriz şəhərinin fərmandarı, fərmandarlığın və Şərqi Azərbaycan Vilayətinin dövlət rəsmiləri, Türkiyə Respublikasının Təbrizdəki Baş Konsulluğunun əməkdaşları və ictimaiyyətin nümayəndələri iştirak etmişlər.

Baş Konsulluq tərəfindən ulu öndərin həyatı və siyasi fəaliyyətindən bəhs edən məqalə hazırlanaraq İranın "Dəniz" qəzetində dərc olunmuşdur.

**"Şərq qapısı"**

## "Naxçıvan və Şərqi Anadolu abidələri" mövzusunda Beynəlxalq Simpozium



***Naxçıvan Dövlət Universitetində (NDU) "Naxçıvan və Şərqi Anadolu abidələri" mövzusunda Beynəlxalq Simpozium keçirilib.***

Azərbaycan, Türkiyə, İran, Əfqanıstan, Rumıniya da daxil olmaqla, 5 ölkədən 56 alimin, həmçinin Naxçıvan Dövlət Universitetinin və ölkəmizin bir sıra ali təhsil ocaqlarının, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) müvafiq elmi-tədqiqat institutlarının, AMEA Naxçıvan Bölməsinin əməkdaşlarının, Türkiyənin Ağrı İbrahim Çeçen, Ərzurum Atatürk, Ankara Qazi, Qars Qafqaz, Elazığ və digər universitetlərindən dəvət olunmuş memarlıq üzrə mütəxəssislərin də iştirak etdiyi beynəlxalq simpoziumun plenar iclası başlamazdan əvvəl Naxçıvan Dövlət Universiteti ərazisində – Memarlıq və mühəndislik fakültəsinin ətrafında Türkiyənin Ağrı İbrahim Çeçen, Ankara Qazi, Ərzurum Atatürk və Naxçıvan Dövlət universitetləri əməkdaşlarının birgə layihəsi olan daşdan düzəldilmiş heykəllərin açılışı olub. Ağrı İbrahim Çeçen Universitetinin müəllimi Naci Edi heykəllər haqqında məlumat verib. Vurğulanıb ki, simpoziumdan 15 gün öncə Naxçıvan Dövlət Universitetində heykəl hazırlanması işlərinə Türkiyə tərəfindən 7 memar qatılıb. Naxçıvan məhsulu olan yerli travertin daşdan hazırlanmış heykəllərdə iki ölkənin milli dəyərləri əks olunub. Ağrı İbrahim Çeçen Universitetinin müəllimi Bilal Hano tərəfindən hazırlanmış "Heydər Əliyev-Atatürk", həmin universitetin müəllimi Naci Edinin "Azərbaycan bayrağı" və assistenti Ozan Baycan ilə birgə hazırladıqları "Azərbaycanın yüksəlişi", Ankara Qazi Universitetinin müəllimi Tulay Özkulun "Sütun və Ay", Ərzurum Atatürk Universitetinin müəllimi Volkan Doğanın "Buğa" əsərləri qonaqlarda maraq doğurub.

Tədbir Magistratura üzrə dekanlığın binasında davam etdirilib. Əvvəlcə foyedə Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik, İncəsənət fakültələri tələbələrinin əl işlərindən ibarət sərgiyə baxış olub. Sərgidə nümayiş olunan müasir binaların maketləri və onların müasir layihələri, həmçinin mövzu və kolorit baxımından orijinallığı ilə seçilən əsərlər maraqla qarşılanıb.

Plenar iclasda giriş sözü ilə çıxış edən Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov Azərbaycan və Türkiyə arasındakı dostluq və qardaşlıq əlaqələrindən bəhs edib. Simpoziumun əhəmiyyətindən danışan rektor bildirib ki, Azərbaycanın tarixi abidələri qədim mədəniyyətimizin və dövlətçilik ənənələrimizin göstəricisidir. Maddi-mədəniyyət abidələrimizin böyük əksəriyyətinin işğal olunmuş ərazilərdə yerləşdiyini bildirən rektor diqqətə çatdırıb ki, ermənilər tarixi irsimizi dünyaya öz memarlıq nümunələri kimi təqdim etməyə çalışırlar. Bunun qarşısını almaq üçün ölkəmizdə müəyyən işlər görülür, bu cür tədbirlərin keçirilməsinə daha çox əhəmiyyət verilir.

Ağrı İbrahim Çeçen Universitetinin rektoru, professor-doktor İrfan Aslan rəhbərlik etdiyi universitet haqqında məlumat verib, tədbirin keçirilməsinin memarlıq nümunələrinin bərpasına diqqəti artırmaqdan ibarət olduğunu bildirib. "Abidələr, sənət əsərləri və mədəni miras bir millətin kimliyi, varlığının sübutudur", – deyən rektor həmçinin Naxçıvan və Naxçıvan Dövlət Universiteti haqqında xoş təəssüratlarını bölüşüb.

Ağrı İbrahim Çeçen Universitetinin rektor köməkçisi, professor-doktor Kamal Polad iki xalqın tarixi bağlılığını, eyni söykökə malik olduğunu isbat edən ortaq mədəniyyətlərin təbliği baxımından bu cür simpoziumların təşkilini yüksək qiymətləndirib.

AMEA-nın müxbir üzvü, memar Cəfər Qiyasi "Türk memarlıq tarixinin birgə araşdırılması" mövzusundakı məruzəsində Naxçıvanın təkcə Azərbaycanın deyil, Türk dünyasının nüfuzlu memarlıq mərkəzlərindən biri olduğunu nəzərə çatdırıb.

Sonra xatirə hədiyyələri və heykəllərin quraşdırılmasında əməyi olan memarlara Naxçıvan Dövlət Universitetinin sertifikatları təqdim olunub.

Plenar iclasın yekununda Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin müəllim və tələbələri konsert proqramı ilə çıxış ediblər. Konsertdə Azərbaycan klassik musiqisinin görkəmli nümayəndələri Ü.Hacıbəylinin, Q.Qarayevin, T.Quliyevin, F.Əmirovun, M.Mirişlinin, R.Hacıyevin ölməz bəstələri, türk mahnıları səsləndirilib.

Sonra simpozium öz işini "Tarix", "Memarlıq", "Mədəniyyət" və "İncəsənət" mövzularında keçirilən bölmə iclasları ilə davam etdirib. Bölmə iclaslarında "Naxçıvan körpüləri", "Azərbaycan-türk naxış sənət vəhdətinə yeni elmi yanaşma tərzi", "Naxçıvan və Şərqi Anadolu ləhcələrinin ortaq türk mədəniyyətinə təsiri" və digər mövzularda məruzələr dinlənilib.

Beynəlxalq simpozium iki gün davam edib.

Qeyd edək ki, qonaqlar universitet kampusunu gəzib, Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix, mədəniyyət və memarlıq abidələri ilə tanış olublar.

**Mina QASIMOVA**

## Ordubad rayonunda əhali tibbi müayinədən keçirilib

Muxtar respublikada əhaliyə göstərilən səhiyyə xidmətinin səviyyəsi ilbəil yüksəldilir. Səhiyyə infrastrukturunun yenilənməsi əhalinin sağlamlığının qorunması işində əsaslı dönüşə səbəb olmuşdur. Müasir tibb ocaqlarının tikilib istifadəyə verilməsi, insanların sağlamlığının yaxşılaşdırılması, əhalinin bütün təbəqələrinin keyfiyyətli tibbi xidmətlə təmin edilməsi diqqət mərkəzində saxlanılır. Bununla yanaşı, yüksəkixtisaslı həkim briqadalarının mütəmadi olaraq muxtar respublikaya gəlməsi də aztəminatlı ailələrdən olan xəstələrin müayinə və müalicəsinə hərtərəfli şərait yaradır.

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə Bakı şəhərində yerləşən Akademik Mirqasımov adına Respublika Klinik Xəstəxanasının 24 nəfərdən ibarət həkim briqadası mayın 7-10-da Ordubad Rayon Mərkəzi Xəstəxanasında əhalini tibbi müayinədən keçirmişdir. Akademik Mirqasımov adına Respublika Klinik Xəstəxanasının baş həkimi Telman İbadovun rəhbərliyi ilə yüksəkixtisaslı həkimlər 3 günlük aksiya müddətində 2478 nəfəri müayinə etmiş, 84 nəfərdə müxtəlif cərrahi əməliyyatlar aparmışlar.

## Növbəti sertifikasiya-test imtahanı

***Muxtar respublikamızda praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan səhiyyə mütəxəssislərinin sertifikasiya prosesi davam etdirilir.***

Növbəti test imtahanında stomatologiya, kardiologiya, nevrologiya, endokrinologiya, şüa diaqnostikası, terapiya, dermatovenerologiya, ginekologiya – bütövlükdə, 11 ixtisas üzrə həkimlər öz bilik və bacarıqlarını sınamışlar.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi sertifikasiya imtahan şurasının sədri Süleyman Cəfərov tibb işçilərinin sertifikasiyasını kadr potensialının gücləndirilməsi istiqamətində ən önəmli addımlardan biri kimi dəyərləndirərək demişdir ki, sertifikasiya əhaliyə keyfiyyətli səhiyyə xidmətinin göstərilməsi, praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin peşəkarlıq səviyyəsinin və peşə yararlılığının artırılması məqsədilə həyata keçirilir. Bu, həkim və orta tibb işçilərinin nəzəri, eləcə də təcrübi bilik və bacarıqlarını daha da artırmalarına imkan yaradacaqdır.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində test imtahanı üçün əvvəlcədən 1000 sual tərtib edilərək kompüterə yerləşdirilmişdir. Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının Naxçıvan Muxtar Respublikası Regional Bölməsi nümayəndəsinin iştirakı ilə test bankından hər variant üzrə 100 sual seçilərək imtahanda iştirak edən 36 tibb işçisinə paylanmış, 3 saat davam edən imtahanın şəffaf, tam obyektiv şəraitdə keçirilməsi təmin edilmişdir.

İmtahanda 5 nəfər 60-70, 7 nəfər 70-80, 10 nəfər 80-90, 14 nəfər isə 90-100 arası bal toplamışdır ki, bu da əvvəlki imtahanlara nisbətən ən yüksək nəticədir.

Sertifikasiya prosesinin müsahibə mərhələsi növbəti on gün ərzində keçiriləcək və bu mərhələdə də uğur qazananlar növbəti beş il üçün sertifikat alacaqlar.

**Xəbərlər şöbəsi**

# "Naxçıvan-2015" Beynəlxalq Şahmat Festivalının qaliblərinin mükafatlandırılması mərasimi keçirilmişdir

*Mayın 10-da "Naxçıvan-2015" Beynəlxalq Şahmat Festivalının qalibləri mükafatlandırılmışdır.*

Şahmat festivalının baş hakimi Faiq Həsənov qalibləri səhnəyə dəvət edərək onlara mükafatları təqdim etmişdir.

Əvvəlcə "C" turnirində 8 yaşa qədər olan idmançılar mükafatlandırılmışdır. Bu yaş qrupu üzrə oğlanlar arasında Sumqayıt şahmatçısı Şamil Məmmədov, Bakı şahmatçısı Əli Züqanov, Naxçıvan şahmatçısı Zahid Allahverdiyev, qızlar arasında isə Bakı şahmatçıları Nurtac Heydərli, Aydan Şükürova və Füzuli rayon şahmatçısı Səmra Qasımova müvafiq olaraq 1-ci, 2-ci və 3-cü yerləri tutmuşlar.

"C" turnirinin 10 yaşlı oğlan şahmatçılarının mübarizəsində 1-ci yerə Cəbrayıl rayonundan olan şahmatçı Mətin Salmanov, 2-ci yerə Sumqayıt şahmatçısı Xəqani Qarayev və 3-cü yerə Naxçıvan şahmat məktəbinin yetirməsi Sadiq Qarayev çıxmışlar. Bu yaş qrupunda qızların mübarizəsində isə Naxçıvan şahmatçısı Zərrin Məmmədli, Ucar şahmatçısı Jalə Kərimli və Goranboydan olan Nərgiz Abdullayeva ilk üç pillədə qərarlaşmışlar.






Qızlar arasında "C" turnirinin qalibləri adını isə Bakı şahmatçısı Ləman Hacıyeva, Masallı rayonunu təmsil edən Gülçin Heydərova və naxçıvanlı şahmatçı Aysel Dünyamalıyeva, oğlanlar arasında Bakı şəhərindən olan şahmatçılardan Mətin Mürsəlli, Atilla Eynullayev və İsmayıllı rayonunu təmsil edən Qafar Bədəlov qazanmışlar.

Bakı şəhərindən olan şahmatçı Vəli Zeynalzadə "Naxçıvan-2015" Beynəlxalq Şahmat Festivalının "B" turnirinin qalibi olmuşdur. 2-ci yerə Elvin Bayramov (Quba), 3-cü yerə isə Naxçıvan şahmatçısı Toğrul Həsənzadə çıxmışlar.

Reytinq əmsalı 0-1749 xal olan şahmatçılardan Kamil Rzayev (Naxçıvan), Həsən Rəhimov (Naxçıvan) və Xəzər Babazadə (Biləsuvar), 1750-1999 reytinq əmsalları olan İlkin Rəhimli (Bakı), Anar Baxışov (Cəlilabad) və Vüqar Əsgərov (Ucar) mükafata layiq görülmüşlər.

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş şahmat festivalının "A" turnirinin qalibi azərbaycanlı qrossmeyster Eltac Səfərli olmuşdur. Festivalda 2-ci yerə azərbaycanlı qrossmeyster Qədir Hüseynov, 3-cü yerə isə gürcüstanlı qrossmeyster Levan Pantsulaya çıxmışlar. Ümumilikdə, "A" turnirində 25 zəka sahibi mükafatlandırılmışdır.

"Naxçıvan-2015" Beynəlxalq Şahmat Festivalının ən azyaşlı üzvü, Naxçıvan şahmat məktəbinin yetirməsi 5 yaşlı Ramal Həsənova xüsusi mükafat verilmişdir.

Mərasimdə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini Azər Zeynalov maraqlı və çətin mübarizə şəraitində keçən şahmat yarışının qaliblərini təbrik etmişdir. "Naxçıvan-2015" Beynəlxalq Şahmat Festivalının təşkilatçılarına və iştirakçılarına təşəkkür edən Azər Zeynalov zəka sahiblərinin növbəti illərdə də Naxçıvanda keçiriləcək şahmat yarışlarında iştirak edəcəklərinə əminliyini bildirmişdir.

Bununla da, ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş "Naxçıvan-2015" Beynəlxalq Şahmat Festivalı başa çatmışdır.

**"Şərq qapısı"**

# *Kirsan İlyumjinov:* Naxçıvanda beynəlxalq şahmat festivallarının yüksək səviyyədə təşkili bir çox ölkələrə nümunədir



"Naxçıvan-2015" Beynəlxalq Şahmat Festivalı qədim Naxçıvan şəhərindəki Şahmat Mərkəzində çox yüksək səviyyədə keçirildi. Yarışın nəticələri media və internet vasitəsi ilə bütün dünyaya çatdırıldı. Dünyanın istənilən ölkəsindən beynəlxalq festivalın gedişini izləmək mümkün oldu. Mənim fikrimcə, artıq ənənə halını alan beynəlxalq şahmat festivallarının yüksək səviyyədə təşkil olunması ilə diqqəti cəlb edən Naxçıvan təcrübəsi bir çox ölkələrə nümunədir.

Bu fikirləri "Şərq qapısı" qəzetinə müsahibəsində Beynəlxalq Şahmat Federasiyasının prezidenti Kirsan İlyumjinov dedi.

Beynəlxalq Şahmat Federasiyasının prezidenti qeyd etdi ki, Naxçıvanda beynəlxalq şahmat festivalları keçirildiyi zaman bütün tanınmış şahmatçılar bura sevinclə gəlirlər. Çünki Naxçıvandakı qonaqpərvərlik, beynəlxalq tədbirlərin keçirilməsi mədəniyyəti, təşkilatçılıq çox yüksək səviyyədədir. Bura qonaq gələn bütün şahmatçılar üçün hər cür şərait yaradılır.

"Naxçıvan-2015" Beynəlxalq Şahmat Festivalının yüksək səviyyədə təşkili üçün mən Naxçıvan Muxtar Respublikasının rəhbərinə minnətdarlığımı bildirmək istəyirəm. Beşinci dəfədir, keçirilən bu festival artıq ənənə halını alıb və hər dəfə də biz festivalın yüksək səviyyədə keçirilməsinin şahidi oluruq", – deyən Kirsan İlyumjinov bildirdi ki, yarışda 12 ölkədən 350-dən çox şahmatçının iştirak etməsi də qeyd olunanları təsdiq edir. Tanınmış şahmatçıların qarşılaşdığı festivalda həm də azyaşlılar arasında şahmat yarışının keçirilməsi çox müsbət haldır.

Beynəlxalq Şahmat Federasiyasının prezidenti vurğuladı ki, Azərbaycanda, eləcə də Naxçıvan Muxtar Respublikasında şahmatın inkişafına göstərilən qayğı, yaradılan infrastruktur məmnunluq doğurur. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən əsası qoyulan şahmata qayğı siyasəti bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən davam etdirilir. Azərbaycan bu il Şahmat üzrə Dünya Kubokuna və 2016-cı ildə Ümumdünya Şahmat Olimpiadasına ev sahibliyi edəcəkdir. Bu, Azərbaycanın dünyada idman, şahmat ölkəsi kimi tanınması, beynəlxalq tədbirlərin keçirildiyi əzəmətli məkana çevrilməsi ilə sıx bağlıdır.

# "Naxçıvan-2015" Beynəlxalq Şahmat Festivalının qalibi:

## *Ümummilli liderə olan sevgimi bir daha ifadə etmək üçün kuboku Heydər Əliyev Muzeyinə hədiyyə etdim*



***"Naxçıvan-2015" Beynəlxalq Şahmat Festivalı ulu öndər Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuşdu. Ona görə də ümummilli liderimizə və onun doğulub boya-başa çatdığı qədim, doğma Naxçıvana sonsuz sevgimi ifadə etmək üçün festivalın qalibi kimi qazandığım kuboku Naxçıvan şəhərində yerləşən Heydər Əliyev Muzeyinə hədiyyə etdim.***

Bu sözləri "Naxçıvan-2015" Beynəlxalq Şahmat Festivalının qalibi, Bakı şahmat məktəbinin yetirməsi Eltac Səfərli dedi.

"Naxçıvanda keçirilən beynəlxalq festivalda artıq ikinci dəfədir, iştirak edirəm. Keçən il ikinci yerə çıxa bildim, bu il isə daha böyük əzmkarlıq göstərərək birinci yeri qazandım. Əminəm ki, bu festivalda iştirak edən hər bir şahmatçı qaliblər sırasına düşməsə belə, Naxçıvandan xoş təəssüratlarla ayrılıb. Çünki mən hər dəfə şahmat bayramının daha yüksək səviyyədə təşkil olunduğunun şahidi oluram", – deyən Eltac Səfərli beynəlxalq şahmat yarışının yüksək səviyyədə təşkili üçün dərin minnətdarlığını bildirdi.

"Naxçıvan-2015" Beynəlxalq Şahmat Festivalının qalibi vurğuladı ki, 5 ildir, keçirilən beynəlxalq şahmat festivalı bir daha muxtar respublikanın beynəlxalq yarışların keçirilməsində böyük təcrübəyə malik olduğunu nümayiş etdirdi. Naxçıvan festivalların yüksək səviyyədə təşkili ilə dünyanın məşhur, tanınmış şahmatçılarını cəlb edə bilib.

*Macarıstan Baş nazirinin xanımı, "Macar mətbəxi" jurnalının baş redaktoru Aniko Levai mayın 9-da Naxçıvan Muxtar Respublikasına gələrək muxtar respublikanın kulinariya mədəniyyəti, Naxçıvan şəhərinin tarixi-memarlıq abidələri, muzeyləri, gəzməli-görməli yerləri ilə tanış oldu.*

# Aniko Levai Naxçıvandan zəngin təəssüratlarla ayrılıb



Xanım Aniko Levai əvvəlcə ulu öndər Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzi meydanında ucaldılan abidəsini ziyarət edərək onun önünə gül dəstəsi qoydu.

Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyinə gələn qonaq burada ümummilli liderin həyatının müxtəlif dövrlərinə həsr olunmuş stendlərə, 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrə aid sənəd və materiallara, məktublara, Azərbaycan Respublikasının müxtəlif bölgələrində yaşayan vətəndaşların müraciətlərinə, ulu öndərə məxsus şəxsi əşyalara maraqla baxdı. Qeyd olundu ki, ümumilikdə, muzeydə 4 min 500-dən çox eksponat var. Muzeyin kitabxanasında ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən qəzet, jurnal, albom və kitablar, videomateriallar toplanıb.

Fondunda 3 min 500-dən çox maddi-mədəniyyət nümunəsi olan Naxçıvan Dövlət Xalça Muzeyi də Aniko Levaidə xoş təəssürat yaratdı. Bildirildi ki, həmin maddi-mədəniyyət nümunələrinin 331-i xalçadır. Ekspozisiyada isə 283 eksponat nümayiş etdirilir. Muzeydəki eksponatlar müxtəlif xalçaçılıq məktəbləri üzrə qruplaşdırılıb. Ekspozisiyada müxtəlif dövrlərə aid nəfis və zərif naxışlarla bəzədilmiş xalçalar nümayiş etdirilir. Burada xovlu xalçalar, məfrəş, palaz, cecim, kilim, sumax, keçə, həsir və digər xalça növləri var. Xalçalardakı həndəsi və nəbati formalı naxışlar uzaq keçmişdən xəbər verən milli mədəniyyətimizin tarixini səciyyələndirir.

Naxçıvan şəhərindəki Əcəmi seyrəngahına gələn macarıstanlı qonaq "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksindəki Naxçıvan Muxtar Respublikasının ərazisindən tapılan müxtəlif dövrlərə aid 450 maddi-mədəniyyət nümunəsi – daşdan düzəldilmiş qoç heykəllər, daş kitabələr, müxtəlif daş fiqurlar, qəbirüstü sənduqələrə maraqla baxdı, onların tarixi barədə ətraflı məlumat aldı.

Azərbaycan milli memarlığının möhtəşəm abidəsi, Şərq memarlığı incilərindən biri olan Möminə xatın türbəsi ilə tanış olan Aniko Levaiyə bildirildi ki, 1186-cı ildə tikilən bu möhtəşəm abidə zaman-zaman "Atabəy günbəzi" adlanıb. Türbə yeraltı, yeni sərdabə və yerüstü hissələrdən ibarətdir. Abidənin baş tağında kufi xətti ilə bu sözlər yazılıb: "Biz gedirik, ancaq qalır ruzigar. Biz ölürük, əsər qalır yadigar" .

Xan sarayı ilə tanışlıq zamanı qonağa məlumat verildi ki, hazırda 8 ekspozisiya zalından ibarət olan muzeydə 900-dən çox eksponat var. Bu eksponatlar içərisində arxiv sənədləri, fotoşəkillər, qədim Kəngərli nəslindən olan Naxçıvan xanlarının şəcərəsi, xanlığın xəritəsi də nümayiş etdirilir.

"Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinə gələn Macarıstan Baş nazirinin xanımı burada muxtar respublikanın ərazisində aşkarlanan tarixi əşyalara baxdı. Bildirildi ki, eramızdan əvvəl V minilliyə aid təsərrüfat küpü, eramızdan əvvəl V-VIII minilliyə aid müxtəlif məişət əşyaları, Son Tunc və Erkən Dəmir dövrünə aid keramika məmulatları, mis alətlər, qəbirüstü abidələr, silahlar qiymətli eksponatlardır.

Naxçıvanın 5 minillik şəhər mədəniyyəti barədə ətraflı məlumat alan Aniko Levai Nuh Peyğəmbərin məzarüstü türbəsinə də baxdı. Bütün səmavi kitablarda öz əksini tapmış ümumdünya tufanından sonra bəşəriyyətin ikinci atası sayılan Nuh Peyğəmbərin bu torpaqda quruya çıxması, burada yaşaması, vəfat etməsi və məzarının qalıqlarının bu torpaqda tapılması barədə əsaslı faktlar və tarixi şəkillər qonaqda böyük maraq oyatdı.

Qeyd olundu ki, bu diyar əsrlərlə bir-birini əvəzləyən qədim sivilizasiyanın beşiyidir. Əfsanələrə görə, Yer üzünü su basarkən Nuh Peyğəmbər məhz Naxçıvanda dayanıb. "Naxçıvan" toponiminin də Nuh Peyğəmbərlə bağlı olduğu deyilir.

"Macar mətbəxi" jurnalının baş redaktoru Naxçıvan şəhərindəki Hüseyn Cavid məqbərəsinə baxdıqdan sonra Duzdağ Fizioterapiya Mərkəzində də oldu. Bildirildi ki, xəstəxana Naxçıvan duz mədəni bazasında, dəniz səviyyəsindən 1173 metr hündürlükdə fəaliyyət göstərir. Onun yeraltı şöbəsində ən müasir tələblərə uyğun yenidənqurma işləri aparılıb, yeraltı şöbə genişləndirilib, müasir avadanlıqlarla və ləvazimatlarla təmin olunub. Duzdağ Fizioterapiya Mərkəzinin müalicəvi təsiri, digər duz şaxtalarından üstünlüyü ondadır ki, şaxta horizontal yerləşdiyindən xəstələr yeraltı şöbəyə tez adaptasiya olunurlar.

Macarıstan Baş nazirinin xanımı, "Macar mətbəxi" jurnalının baş redaktoru Aniko Levai "Şərq qapısı" qəzetinə müsahibəsində bildirdi ki, Naxçıvanın çox qədim və maraqlı tarixi keçmişi var. Naxçıvan həm də rəngarəng mətbəxə malikdir. Azərbaycan kulinariyasının əsas tərkib hissəsi olan Naxçıvan kulinariyası öz tarixi kökləri və özünəməxsusluğu ilə fərqlənir.

"Milli xörəkləriniz dad-tam keyfiyyətləri ilə fərqlənir. Azərbaycan xörəkləri dadı və hazırlanmasına, həmçinin tünd ədviyyə və tamlı əlavələr qatılmasına görə daha çox Şərq mətbəxinə yaxındır", – deyən Aniko Levai qeyd etdi ki, "Macar mətbəxi" jurnalı oxucularını təkcə Macarıstanın deyil, həm də ayrı-ayrı ölkələrin kulinariya mədəniyyəti ilə yaxından tanış edir. Bu baxımdan jurnal özünəməxsusluğu, çoxçeşidliliyi və zənginliyi ilə tanınan Azərbaycan mətbəxinə dair xüsusi buraxılışın hazırlanmasında maraqlıdır.

**Rauf ƏLİYEV**

# Tədbirlər planının uğurlu icrası nağdsız ödənişlərin həcmini xeyli artırıb

*Nağdsız ödənişlərin əhatə dairəsinin genişləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər Naxçıvan Muxtar Respublikasında maliyyə sabitliyinin qorunmasına, iqtisadi artımın stimullaşdırılmasına, əhalinin kredit resurslarından istifadə imkanlarının genişlənməsinə xidmət edir.*

Bu mənada nağdsız ödənişlərin iqtisadiyyatdakı çəkisini artırmaq üçün 2013-2015-ci illəri əhatə edən “Naxçıvan Muxtar Respublikasında elektron ödəniş məkanının formalaşdırılması və nağdsız hesablaşmaların həcminin artırılması üzrə Tədbirlər Planı” təsdiq edilmişdir. Tədbirlər planına uyğun olaraq, maliyyə sektorunun aparıcı subyektləri olan banklar və digər maliyyə təsərrüfatları tərəfindən nağdsız ödəniş sisteminin tətbiqinin texniki tərəflərinin həll edilməsi, infrastrukturun inkişafı və təkmilləşdirilməsi, ictimaiyyətin maarifləndirilməsi və maraqlandırılması, geniş təbliğat-təşviqat işlərinin aparılması istiqamətindəki fəaliyyət uğurla həyata keçirilir. Bütün bunların nəticəsidir ki, tədbirlər planının son ilində proqramın icrasının istər iqtisadi, istərsə də sosial sferada müsbət nəticələndiyini aydın şəkildə görmək mümkündür.

Geridə qoyduğumuz 2 il ərzində nağdsız ödənişlərin həcmində müşahidə olunan dinamik artım tədbirlər planının uğurla həyata keçirildiyinin əsas göstəricilərindəndir. Layihənin ilk dövrlərində əsas istiqamət olaraq götürülən infrastrukturun genişləndirilməsi – muxtar respublikanın ən ucqar kəndlərindən rayon mərkəzlərinə, iri ticarət mərkəzlərindən kiçik sahibkarlıq subyektlərinə qədər real sektorun bütün sahələrində genişləndirilən POS-terminal şəbəkəsinin qurulması uğurla icra olundu.

Muxtar respublika üzrə bir POS-terminala düşən əhali sayı 2013-cü ildə 1587 nəfər




idisə, 2015-ci ilin I rübündə 422 nəfər olmuşdur. Eyni dövrdə bu göstərici respublika üzrə 99,2 faizlik bir artım deməkdir. Sözügedən dövrdə hər yüz nəfərə düşən ödəniş kartı 46 ədəd kartdan 53 ədəd karta yüksəlməklə, 15,2 faizlik bir artımla nəticələnmişdir. Bu göstərici də respublika üzrə müşahidə olunan 4,1 faizlik ümumi artımı üstələmişdir. POS-terminal və ödəniş kartları əlaqələrində isə hər bir POS-terminala düşən kart sayı azaldılaraq yarana biləcək çatışmazlıqlar və yüklənmələrin qarşısı alınmışdır. 2013-cü ildə bir POS-terminala düşən ödəniş kartının sayı 738 ədəd təşkil edirdisə, bu rəqəm 222-yə qədər azaldılmışdır.

İlk mərhələnin yüksək nailiyyətlərlə başa vurulması layihənin ikinci və əsas mərhələsi olan maarifləndirilmə prosesinə keçid üçün zəmin yaratmışdır. Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin əməkdaşları tərəfindən bankın inzibati binasında muxtar respublikada fəaliyyət göstərən bankların aidiyyəti sahə üzrə əməkdaşları, ümumtəhsil məktəblərində şagird və müəllim kollektivi, universitetlərdə tələbələr və muxtar respublikada fəaliyyət göstərən bir sıra iri və orta sahibkarlar üçün təşkil olunan müzakirə və maarifləndirici əsaslı treninqlərdə bu sahənin faydalarından, mikro və makrosferada iqtisadi yararlarından bəhs olunması əhalinin geniş kütləsinin nağdsız ödənişlər sahəsində olan məlumatının və marağının artmasını təmin etmişdir.

Bu tədbirlərlə paralel olaraq muxtar respublikada fəaliyyət göstərən banklar tərəfindən nağdsız aparılan əməliyyatlara təyin olunan güzəştlər və POS-terminallar üçün nəzərdə tutulan bəzi xidmət haqlarından azadetmələr istər əhali, istərsə də sahibkarlar üçün stimul olmuş və nağdsız ödənişlərə üstünlük verilməsi ilə nəticələnmişdir.

Vergidənyayınmalar və qanunsuz pul dövriyyəsinə nəzarət mexanizmi kifayət qədər şəffaf olan elektron ödənişlər Vergilər Nazirliyinin də bu sahənin inkişafına maraq göstərməsinə səbəb olur. Təkcə 2014-cü il ərzində Vergilər Nazirliyi tərəfindən “Nağdsız ödə, hədiyyə qazan” stimullaşdırıcı tədbiri çərçivəsində iyul (76 nəfər) və dekabr (147 nəfər) aylarında nağdsız ödənişlərdə fərqlənən 223 nəfər muxtar respublika sakini müxtəlif növ hədiyyələrlə mükafatlandırılmışdır. Hədiyyə alanlar təkcə Naxçıvan şəhəri ilə məhdudlaşmamış, muxtar respublikanın rayon və kəndlərinin də sakinləri hədiyyələr almışlar.

Mükafatlandırılanların ixtisas və yaş qrupunun fərqlənməsi 2 il əvvəl çox kiçik bir qisim tərəfindən bilinən nağdsız ödəniş alətlərindən artıq hər yaşda və müxtəlif ixtisas sahələrində çalışan şəxslər tərəfindən istifadə olunduğunun açıq-aşkar sübutudur. Mükafat verilənlər arasında təqaüdçülərin də olması əmək fəaliyyətini başa vurmuş əhalidə də bu istiqamətdə artıq kifayət qədər biliyin olduğunu göstərir.

İntensiv şəkildə aparılan infrastrukturun genişləndirilməsi işləri, əhalinin müxtəlif təbəqələrinə yönəndirilmiş maarifləndirmə tədbirləri, banklar və digər dövlət qurumları tərəfindən həyata keçirilən həvəsləndirici tədbirlər cəmiyyətə pozitiv təsir göstərmiş və nağdsız şəkildə ödənişlərdə əhalinin istər POS-terminal və bankomatlar, istərsə də elektron ödəniş formalarından – internet və digər ödəniş vasitələrindən təhlükəsiz və rahat şəkildə istifadə etməsinə nail olunmuşdur.




Məhz bütün görülmüş işlərin nəticəsidir ki, 2013-cü ildə bir POS-terminal üzrə aparılan nağdsız əməliyyatların həcmi 580 manatdan 2015-ci ildə 95 faiz artaraq 1130 manata qədər yüksəlmişdir. 2013-cü ildə bu göstərici üzrə ən yüksək rəqəmlərə əsasən, Naxçıvan şəhərində (bir POS-terminala 727 manat) rast gəlinirdi. Muxtar respublikanın bəzi rayonlarında 116 manat (Babək rayonu), 135 manat (Şahbuz rayonu), 189 manat (Kəngərli rayonu) həcmində nağdsız ödənişlər aparılmışdısa, 2015-ci ildən başlayaraq heç bir rayonda 1100 manatdan aşağı məbləğ müşahidə edilmir. Ən yüksək göstəriciyə isə Şahbuz (2685 manat), Sədərək (2902 manat) və Babək (1896 manat) rayonlarında rast gəlinmişdir.

Müqayisəsi aparılan dövrdə bir POS-terminala düşən ödəniş kartı sayında da azaldılmaya nail olunmuşdur. Əgər 2013-cü ildə bir POS-terminalla orta rəqəmlə 738 ədəd kartın əməliyyat aparılması nisbəti var idisə, hal-hazırda bu nisbət 3,3 dəfəyə qədər azaldılmışdır. Hər bir POS-terminala düşən kart sayı 222 ədəd təşkil etmişdir.

Nağdsız hesablaşmalar sahəsində mühüm göstəricilərdən sayılan bir kart üzrə aparılan nağdsız ödəniş məbləğində də yüksək artım faizi müşahidə edilmiş, sözügedən dövr ərzində 344 faizlik bir artıma nail olunmuşdur. Bu göstərici üzrə də istər respublikamız (Azərbaycan Mərkəzi Bankının 2013-2014-cü il göstəricilərinə əsasən, 16,6 faiz), istərsə




də MDB ölkələri ilə müqayisədə (Rusiya Federasiyasının Mərkəzi Bankının cari vəziyyətdə təqdim etdiyi ən son statistik göstəricilərə əsasən, bir il müddət ərzində 51 faiz, Ukrayna Milli Bankının cari vəziyyətdə təqdim etdiyi ən son statistik göstəricilərə əsasən, bir il müddət ərzində 49 faiz) ən yüksək nəticə məhz muxtar respublikamızda əldə edilmişdir.

Tədbirlər planı həyata keçirildiyi gündən başlayaraq ümumi nağdsız ödəniş həcmi artım tempini daim qorumuş, real sektorun bütün sahələrində intensiv şəkildə yayılmışdır. Muxtar respublikamızda 2014-cü ilin yanvar ayından bu günə 471 faizlik artım göstərmiş bu sahə respublika üzrə əldə olunan artımı üstələmiş və hətta nağdsız ödənişlər sahəsində öndə gedən digər MDB ölkələrini də (Rusiya 56,5 faiz, Ukrayna 60,4 faiz) geridə qoymuşdur.

Baxmayaraq ki, nağdsız hesablaşmalar sahəsində nail olduğumuz vəziyyət kifayət qədər qənaətbəxş deyil, lakin qısa dövr ərzində qət etdiyimiz yolu və diqqət yeridilmiş iqtisadi siyasət sayəsində əldə etdiyimiz yüksək statistik göstəriciləri nəzərə alsaq, tezliklə lazımi səviyyəyə çatacağımızı əminliklə deyə bilərik. Bunu da qeyd etmək lazımdır ki, dünyada inkişaf etmiş ölkələr bu istiqamətə bizdən daha tez yönəlmiş, proseslər uzunmüddətli bir dövrü əhatə etmişdir.

2014-cü ilin ilk üç ayı ərzində nail olunmuş nəticəni 2015-ci ilin müvafiq dövrü ilə müqayisə edərkən cari ilin rəqəmlərinin daha yüksək olduğu, prosesin durğunlaşmadan, intensiv şəkildə davam etdiyi və artıq əhalidə də vərdiş halını alaraq həyat tərzinə çevrildiyi müşahidə olunmaqdadır.

*Təbii ki, bu sahədə görüləcək işlər çoxdur. Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi və bu sahəyə maraqlı digər dövlət qurumları daim müştərək çalışaraq ehtiyac olan sahələrdə istər infrastruktur, istərsə də məlumatlandırma işlərini davam etdirir, nağdsız hesablaşmaların əhatə dairəsinin genişləndirilməsini təmin edirlər.*

**Tural ŞİRƏLİZADƏ**
*Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin aparıcı mütəxəssisi*

# Meliorasiya və irriqasiya tədbirlərinin həcmi genişləndirilir

Muxtar respublikada suvarma tədbirlərinin vaxtında aparılmasına diqqət yetirilir. Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin kollektivi hidrotexniki qurğuları istismara yararlı vəziyyətə gətirir, meliorativ tədbirlər gücləndirilir. İstismarda olan bütün kanal, nasos və subartezian quyuları bu ilin suvarma mövsümünə tam hazır vəziyyətə gətirilmişdir. Bu sahədə görülən işlərin tərkib hissəsi olaraq rayon suvarma sistemləri idarələri tərəfindən aprel ayında 24,8 kilometr kanal, 45,3 kilometr ara arxları, 10 kilometr kollektor lildən təmizlənmiş, 11 kilometr yeni suvarma xətti çəkilmişdir. Vayxır sol sahil kanalının altında tikilən mexaniki suvarma şəbəkəsində 32 kilometr suvarma xətti çəkilmiş, 20,3 kilometr drenaj şəbəkəsi qurulmuşdur. Həmçinin ötən ay Araz çayında torpaqların yuyulmasının qarşısını almaq üçün 1 kilometr məsafədə sahilbərkitmə işləri aparılmışdır.

Ötən ay 70 subartezian quyusu təmir olunmuşdur. Şərur rayonunun Oğlanqala kəndini içməli su ilə təmin etmək məqsədilə Arpaçayda yeni subartezian quyusu qazılmışdır. Culfa rayonunun Bənəniyar kəndinin su təchizatını yaxşılaşdırmaq məqsədilə Əlincə çayında 240 metr kaptaj tikilmiş, kəndin içməli su xətti təmir olunmuşdur. Babək rayonunun Payız kəndində də kaptaj tikintisi və su xətlərinin bərpası işləri həyata keçirilmişdir. Ümumiyyətlə, aprel ayında muxtar respublika əhalisinin içməli su təminatının ödənilməsi istiqamətində görülən işlər çərçivəsində 5,3 kilometr yeni içməli su xətti çəkilmiş, 5,7 kilometr içməli su xətti təmir olunmuşdur. Aprel ayında 1 kəhriz tam bərpa olunaraq istismara verilmişdir. Hazırda 7 kəhrizdə təmir işləri davam etdirilir.

Naxçıvan şəhərində “Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı” layihəsi çərçivəsində 395 metr kanalizasiya şəbəkəsi tikilmiş, 31 ev kanalizasiya şəbəkəsinə qoşulmuş, 113 ev birləşməsi aparılmaqla sayğac quraşdırılmışdır. Rayon mərkəzi və ətraf kəndlərində su təchizatı və kanalizasiya şəbəkəsinin yenidən qurulması layihəsi çərçivəsində isə Şahbuz rayonunda su anbarının, Culfa rayonunda sutəmizləyici qurğunun binasında tikinti və abadlaşdırma işləri davam etdirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidməti***

# Muxtar respublikada istehlakçılar təbii qazla etibarlı təmin olunurlar

*Muxtar respublikada yaşayış məntəqələrinin və istehsal sahələrinin təbii qazla fasiləsiz təmin olunması istiqamətində görülən tədbirlər davam etdirilir.*

“Naxçıvanqaz” İstehsalat Birliyinin əməkdaşları istehlakçıların təbii qazla fasiləsiz təmin olunması məqsədilə mütəmadi tədbirlər görürlər. Aprel ayında abonentlər tərəfindən daxil olan müraciətlər əsasında 85 yeni mənzil, fərdi yaşayış evi və digər obyektlər qazlaşdırılmışdır. Həmçinin qaz istismarı idarələrinin qəza dispetçer xidmətlərinə təbii qaz istehlakçılarından 1688 çağırış daxil olmuş və bütün çağırışlara vaxtında gedilərək müvafiq tədbirlər görülmüşdür.

İstehsalat təlimatına və tərtib edilmiş tədbirlər planına əsasən, qaz təsərrüfatında, eləcə də avtomat qazpaylayıcı stansiyalarda istismarda olan kranlara, magistral, daşıyıcı, paylayıcı qaz kəmərlərinə, qaztənzimləyici şkaftipli qurğu və məntəqələrə, ölçü qovşaqlarına texniki baxış keçirilmiş, aşkar olunan çatışmazlıqlar aradan qaldırılmışdır. Ərazilər üzrə bütün sistem boyu qaz kəmərlərinə qazanalizatorlarla xətti nəzarət və texniki baxış keçirilmiş, 1937 halda sızma aşkarlanaraq aradan qaldırılmışdır.

Təbii qazdan istifadə zamanı təhlükəsizlik təlimatlarına riayət edilməsi ilə əlaqədar reydlər, maarifləndirmə tədbirləri aprel ayında da davam etdirilmiş, nöqsanlar aradan qaldırılmış, istismara yararsız 369 sayğac yenisi ilə əvəz edilmişdir. Kadr potensialının artırılması, qaz istismarı sahəsində çalışanların ixtisas dərəcəsi və peşəkarlıq səviyyəsinin yüksəldilməsi də diqqət mərkəzində saxlanılmış, bu məqsədlə şəhər, rayon Qaz İstismarı idarələrinin bir qrup işçisi Naxçıvan Regional Peşə Tədris Mərkəzində təşkil olunan “qaz təsərrüfatı avadanlıqlarının istismarı və təmiri üzrə nəzarətçi-çilingər” peşəsi üzrə kurslara cəlb olunmuşdur.

***“Naxçıvanqaz” İstehsalat Birliyinin mətbuat xidməti***

*Naxçıvan dəmiryolçuları verilən tapşırıqların icrasını vaxtında və layiqincə yerinə yetirir. Bunun nəticəsidir ki, bu sahədə xidmətin səviyyəsi getdikcə yüksəlir, yük və sərnişin qatarlarının fasiləsiz hərəkəti təmin olunur.*

# Dəmir yolu nəqliyyatı üzrə əhaliyə nümunəvi xidmət göstərilir

Bu ilin aprel ayında Yük və Sərnişin Daşımaları İdarəsi tərəfindən muxtar respublika ərazisindəki ayrı-ayrı tikinti təşkilatlarının ünvanına 5 min 192 ton müxtəlif təyinatlı yük daşınmış, 11 min 696 sərnişin nəqliyyatın bu növündən istifadə etmişdir.

Yollarda təhlükəsizliyin təşkili fasiləsiz hərəkətin təmin olunmasında əsas amildir. Buna görə də baş və stansiya yollarına mütəmadi nəzarət edilmiş, yağış və leysan sularının maneəsiz ötürülməsi üçün süni tikililər, küvetlər və yol yataqları təmizlənmişdir. Ötən ay Culfa lokomotiv deposunda elektrovozlar 1, teplovozlar isə 4 dəfə texniki baxışdan keçirilmiş, Culfa vaqon deposunda isə 3 vaqon təmir edilmişdir.

Stansiyalarda qatarların hərəkətinin təhlükəsizliyinin təmin olunmasında rabitə və işarəvermə xidməti də mühüm rol oynayır. Buna görə də bu sahənin normal fəaliyyəti daim diqqət mərkəzində saxlanılır. Aprel ayında da bu istiqamətdə müvafiq işlər görülmüş, 81 müxtəliftipli rele dəyişdirilmiş, Qıvraq stansiyasında istismara yararsız 2 işıqfor yenisi ilə əvəz olunmuşdur. Bundan başqa, qatar dispetçeri ilə maşinistlər arasında olan radio-rabitənin etibarlığını artırmaq məqsədilə lokomotivlərdə 3, stansiyalarda isə 4 ədəd müxtəliftipli blok dəyişdirilmişdir. Dəmiryol obyektlərinin və elektrovozların fasiləsiz elektrik enerjisi ilə təmin olunması məqsədilə alçaq və yüksəkgərginlikli elektrik ötürücüsü və kontakt şəbəkəsi xətlərində təmir işləri aparılmışdır.

Texniki İnzibati Binaların Təmir-Tikinti İdarəsi tərəfindən aprel ayında Ordubad stansiyası idarəetmə mərkəzində əsaslı təmir işləri aparılmış, Ordubad yol sahəsinin inzibati binasının və Ordubad dəmiryol sərnişin vağzalı binasının tikintisi davam etdirilmişdir.

***“Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyəti***

## Karate-do üzrə muxtar respublika açıq birinciliyi keçirilib

***Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş karate-do üzrə Naxçıvan Muxtar Respublika açıq birinciliyi keçirilib.***

rayonlarının idmançıları ilə yanaşı, yarışda Bakı şəhərinin müxtəlif idman klublarını təmsil edən 50-dən çox karateçi iştirak edib.

Karatenin kontakt və şotokan





Birinciliyin açılış mərasimində ilk olaraq Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Sonra Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının sədri Vəli Ələsgərov çıxış edərək iştirakçılara uğurlar arzulayıb. Tədbirin bədii hissəsində uşaq rəqqasların və karateçilərin nümunəvi çıxışları tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Karate-do Federasiyasının birgə təşkil etdiyi birincilikdə 7 yaş qrupu üzrə 250-dən çox idmançı mübarizə aparıb. Muxtar respublikanın şəhər və növləri üzrə keçirilən birinciliyi idarə edən hakimlər sırasında paytaxt Bakıdan dəvət olunan beynəlxalq dərəcəli hakim, JKS beynəlxalq dərəcəli, 5-ci dan qara kəmər ustası Rafael Məmmədov, idman ustası Siyavuş Bağırov və Vüsal İsrafilov da yer alıblar.

Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində təşkil olunan birinciliyin son günündə keçirilən final görüşlərindən öncə naxçıvanlı karateçilərin nümunəvi çıxışları olub. Daha sonra final görüşlərinə start verilib.

Karatenin şotokan növü üzrə keçirilən həlledici qarşılaşmalarda Sinan İbrahimov (6-7 yaş), Rəşid Süleymanov (8-9 yaş), Sərdar Qulamov (10-11 yaş), Murad Ələkbərov (12-13 yaş), Heydər Nəcəfov (14-15 yaş) və Abbas Qasımov (16-17 yaş) birinci yerlərə layiq görülüblər. Bu növdə 8-9 yaşlı qızların final qarşılaşmasında Günay Süleymanova Nuray Bayramovaya qalib gələrək birinci yerə çıxıb.

Kontakt növü üzrə keçirilən yarışda isə Rza Kərimov (8-9 yaş), Mahir İbrahimov (10-11 yaş), Ələkbər Abdullayev (12-13 yaş), Azər Vəliyev (14-15 yaş) və Fərid Cəfərov (16-17 yaş) qalib adını qazanıblar.

Kata yarışlarında Xəyal Məmmədov hamıdan üstün olduğunu nümayiş etdirib.

Sonda qalib idmançılara təşkilatçılar tərəfindən medal, diplom, kubok və hədiyyələr təqdim olunub.

## Basketbol birinciliyinə start verilib





*Dünən Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş kişilər arasında basketbol üzrə muxtar respublika birinciliyinə start verilib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Basketbol Federasiyasının birgə təşkil etdiyi birincilikdə muxtar respublikanın şəhər və rayonlarından 8 komanda mübarizə aparır.*

Birinciliyin açılış mərasimində ilk olaraq Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Sonra Basketbol Federasiyasının sədri Mahir Əliyev çıxış edərək bildirib ki, federasiya tədbirlər planına uyğun olaraq, bu idman növünün muxtar respublikada kütləvi hal alması, gənclər arasında təbliğ olunması üçün müəyyən işlər görür. "Muxtar respublikanın bütün şəhər və rayonlarında basketbolun inkişafı üçün qruplar fəaliyyət göstərir. Artıq gənclərin bu sahəyə marağı artmaqdadır", – deyən federasiya sədri ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş kişilər arasında basketbol üzrə muxtar respublika birinciliyində iştirak edən komandalara uğurlar arzulayıb.

Birinciliyin reqlamentinə uyğun olaraq, 8 komanda iki yarımqrupda mübarizə aparır. "A" qrupunda "Naxçıvan", "Şahbuz", "Şərur" və "Babək", "B" qrupunda isə "Ordubad", "Lokomotiv", "Culfa" və "Sədərək" komandaları birincilik uğrunda meydana çıxacaqlar. Üç gün davam edəcək birinciliyin qrup mərhələsini ilk iki pillədə başa vuran komandalar yarımfinala vəsiqə qazanacaqlar. Bu mərhələdə isə onlar həlledici qarşılaşma üçün meydana çıxacaqlar.

## "Sədərək" komandası muxtar respublika birinciliyinin qalibi olub

***Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr edilmiş voleybol üzrə kişilər arasında Naxçıvan Muxtar Respublika birinciliyinə yekun vurulub. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Voleybol Federasiyasının birgə təşkil etdiyi birincilikdə şəhər və rayonların 8 komandası mübarizə aparıb.***



İki gün davam edən muxtar respublika birinciliyi olimpiya sistemi üzrə keçirilib. Yarışın ilk günündə "Sədərək" "Babək"i, "Şərur" "Ordubad"ı, "Culfa" "Kəngərli"ni, "Naxçıvan" isə "Şahbuz"u məğlub edərək adlarını yarımfinala yazdırıblar. Bu mərhələnin oyunları isə daha gərgin idman mübarizəsi şəraitində keçib. Birinciliyin favoriti kimi göstərilən "Sədərək" final yolunda Şərur voleybolçuları mübarizədən kənarlaşdırıb. Onların həlledici qarşılaşmada rəqibi "Culfa" komandası olub. Culfalılar isə bu mərhələdə şahbuzlu həmkarlarından üstün olublar.

Birinciliyin son günündə əvvəlcə meydana üçüncülük uğrunda "Şərur" və "Şahbuz" komandaları çıxıblar. Daha baxımlı oyun sərgiləyən Şərur voleybolçuları hər üç setdə qalib gələrək birinciliyi üçüncü pillədə başa vurublar – 3:0.

Final qarşılaşmasında isə "Sədərək" "Culfa" komandası ilə üz-üzə gəlib. Azarkeşlərin böyük marağla izlədiyi görüşdə sədərəklilər qalib gəliblər – 3:0.

Bununla, "Sədərək" komandası ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr edilmiş voleybol üzrə kişilər arasında Naxçıvan Muxtar Respublika birinciliyinin qalibi olub.

Sonda təşkilatçılar tərəfindən yer tutmuş komandalara diplom, kubok və hədiyyələr təqdim edilib.

**Ceyhun MƏMMƏDOV**

*Azərbaycan milli teatr tarixinə parlaq səhifələr yazmış Naxçıvan teatrının yaranmasından 132 il ötür. Bu münasibətlə mayın 11-də Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında tədbir keçirilmişdir.*

## Naxçıvan teatrının yaranma günü qeyd edilib

Tədbiri Naxçıvan Muxtar Respublikasının Mədəniyyət və Turizm naziri Sarvan İbrahimov açaraq bu sənət ocağının keçdiyi inkişaf yolundan danışmışdır. Bildirilmişdir ki, işıqlı amallar carçısı olan Naxçıvan teatrı Azərbaycan səhnə sənətinə qüdrətli sənətkarlar bəxş etmişdir. Milli-mənəvi dəyərlərin qorunmasında və təbliğində, mütərəqqi ideyaların yayılmasında, yeni tamaşaçı nəslinin formalaşmasında, maariflənməsində teatrımızın xidmətlərindən danışan nazir vurğulamışdır ki, buna görə teatrımızın inkişafında xidmətləri olan görkəmli sənət korifeylərimizi ehtiramla xatırlayır və onların Naxçıvan teatrında yaratdıqları ənənələri yaşadır və zəngin yaradıcılıq irslərindən bəhrələnirik.

Nazir qeyd etmişdir ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin qayğısı nəticəsində Naxçıvan teatrı ötən əsrin 70-ci illərindən başlayaraq yeni inkişaf mərhələsi yaşamış, mədəniyyətimizi, milli dəyərlərimizi əks etdirən dolğun tamaşalar yaratmışdır. Ümummilli liderimiz Naxçıvan teatrına yüksək qiymət verərək demişdir: "Naxçıvan teatrı köklü, əsaslı bir teatrdır. Yaxın Şərqin ən qocaman sənət ocaqlarından biri olan Naxçıvan teatrı böyük yaradıcılıq yolu keçmişdir. Teatr bu ənənəni bu gün də qoruyub saxlayır".

Ümummilli lider Heydər Əliyevin yolunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev teatr sənətimizin inkişafını diqqət mərkəzində saxlayır. Dövlət başçısının 2008-ci il 31 yanvar tarixli Sərəncamı ilə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının 125 illik yubileyi dövlət səviyyəsində qeyd olunmuşdur. Yubiley ərəfəsində teatr kollektivinin əməyi yüksək qiymətləndirilmiş, səmərəli fəaliyyətinə görə bir qrup sənət adamı Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarına, orden və medallara, Prezident mükafatı və təqaüdlərinə layiq görülmüşdür.

Azərbaycan Respublikasının Xalq artisti, teatrın direktoru Rza Xudiyev müstəqillik illərində teatrın yaradıcılıq axtarışlarından və xarici ölkələrə qastrol səfərlərindən, yüksək səviyyəli teatr festivallarında və tədbirlərində iştirakından söhbət açmışdır. Qeyd olunmuşdur ki, teatrımıza dövlət qayğısı bu gün yüksək səviyyədədir. Elə bu günlərdə 3 aktyorumuzun əməyi yüksək qiymətləndirilmiş, ölkə Prezidentinin Sərəncamı ilə onlar Prezident mükafatına layiq görülmüşlər.

Bu sahəyə göstərilən dövlət qayğısının nəticəsidir ki, Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının binasında yenidənqurma işləri aparılmışdır. 2012-ci ildə teatr binasının əsaslı yenidənqurmadan sonra istifadəyə verilməsi muxtar respublikanın mədəni həyatında əlamətdar hadisə kimi hamımızın yadındadır.

Vurğulanmışdır ki, açılış mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov çıxış edərək yüksək vətənpərvərlik mövzusunda tamaşalar göstərilməsini tövsiyə etmişdir. Bu günlərdə teatrımız muxtar respublikanın rayonlarında olaraq bu mövzuda tamaşalar göstərməkdə davam edir.

Bildirilmişdir ki, Naxçıvan teatrı bundan sonra da milli dövlətçiliyimizin daha da möhkəmləndirilməsinə xidmət edən yüksək sənət əsərlərini tamaşaya qoymaqla mütərəqqi ideyaların keşiyində duracaq, vətənpərvərlik duyğuları ilə zəngin əsərlər səhnələşdirəcəkdir.

Tədbirin sonunda Azərbaycan dramaturgiyasının banisi M.F.Axundzadənin "Müsyö Jordan və Dərviş Məstəli şah" komediyası əsasında hazırlanmış "Müsyö Jordanın Qarabağ sərgüzəşti " tamaşası göstərilmişdir. Tamaşanın quruluşçu rejissoru Tofiq Seyidov, quruluşçu rəssamı Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Səyyad Bayramov, musiqi tərtibatçısı Ruhəngiz Seyidovadır.

Böyük dramaturqun ölməz obrazlarını Azərbaycan Respublikasının Əməkdar artistləri Əbülfəz İmanov (Müsyö Jordan), Əli Əliyev (Hatəmxan ağa), Behruz Haxverdiyev (Dərviş Məstəli şah), aktrisalar Nazlı Hüseynquliyeva (Şəhrəbanu xanım), Şölə Novruzbəyli (Şərafnisə xanım), Fidan Qasımova (Gülçöhrə), Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Kəklik Novruzova (Xanpəri), aktyor Anar Eyvazov (Şahbaz bəy) və başqaları canlandırmışlar.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov iştirak etmişdir.

**Əli RZAYEV**

## "Gənclik" Mərkəzində konsert

Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu və Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə konsert proqramı təşkil edilib. Tədbirin açılış mərasimində çıxış edən Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin müdiri Canməmməd Canməmmədov qeyd edib ki, bu gün təşkil olunan konsert proqramı ölkəmizdə, eləcə də muxtar respublikamızda ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə keçirilən silsilə tədbirlərin davamıdır.

Sonra Naxçıvan Musiqi Kollecinin estrada orkestrinin ifasında müxtəlif musiqi nömrələri səsləndirilib. Konsert proqramında 400-ə yaxın gənc iştirak edib.

**Xəbərlər şöbəsi**

### İtmişdir

Kəngərli rayonunun Xok kənd sakini Cəfərova Sənubər Allahqulu qızının adına verilmiş JN-215A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Babək rayonunun Şıxmahmud kənd sakini Yaqubov İdris Musa oğluna məxsus JN-119A inventar nömrəli 10311018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, "Qoçüstü" məhəlləsi, bina 1, mənzil 104-də yaşamış Tarverdiyeva Həcər Allahqulu qızının adına olan 6855 nömrəli texniki pasport və 0013976 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

* * *

1989-cu ildə Naxçıvan şəhər M.Məmmədov adına 1 nömrəli Uşaq musiqi məktəbi tərəfindən Qazıyeva Aynur Məmmədbağır qızının adına verilmiş şəhadətnamə itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 380